**O.Ə.QARAZADƏ**
*magistrant*
*e-mail: garazada.orkhan.2001@atmu.edu.az*

**Azərbaycan Turizm və Menecment Universiteti**
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

# AZƏRBAYCANDA İSTİRAHƏT KOMPLEKSLƏRİNİN TƏŞKİLİ VƏ TÜRKİYƏ TƏCRÜBƏSİ

***Açar sözlər:*** *turizm, turizm sənayesi, turizm müəssisələrinin təşkili, istirahət komplekslərinin təşkili, otellərin idarəetməsi, mehmanxanalar*

***Ключевые слова:*** *туризм, индустрия туризма, организация туристических предприятий, организация комплексов отдыха, гостиничный менеджмент, гостиницы*

***Key words:*** *tourism, tourism industry, organization of tourism enterprises, organization of recreation complexes, hotel management, hotels*

**Giriş.** Turizm sektorunun inkişafı iqtisadiyyata yüksək gəlir gətirir. İqtisadiyyatın inkişafı konsepsiyasına təsir etməsini nəzərə alan Azərbaycan Respublikasında da turizm sektoruna xüsusi önəm verilir, müəyyən metodoloji vəsaitlərdən istifadə vasitəsilə inkişafı dəstəkləyən strateji xəritələr tətbiq edilir. Azərbaycan kurort zonaları, muzeylər, parklar, dağ turizmi və mədəni turizm üçün ideal ölkədir. Xüsusilə, paytaxt Bakı turistlərin diqqətini cəlb edir. Bundan əlavə, Gəncə, Quba, Şəki, Qobustan və Nabran şəhərləri də turizmin intensiv olduğu şəhərlərdir. (7) Müstəqillik əldə edildikdən sonra ölkəmizdə turizmin inkişafına yetirilən diqqət nəticəsində yerləşdirmə müəssisələrinin təşkilinə, sayının artırılmasına və müəyyən dövlətlərin bu sahədə olan təcrübələrinə nəzər yetirilməsinə başlandı.

**Azərbaycan turizm sənayesində yerləşdirmə müəssisələri**. Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətlərindən biri də ölkəmiz üçün əsas sahə olan turizmdə inqilabi dəyişikliklərin meydana çıxarılmasıdır. Ölkədə yerləşdirmə müəssisələri, əsasən, paytaxt Bakı şəhəri və onun ətrafında yerləşir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin respublikamızın iqtisadiyyatını inkişafetdirməsi nəticəsində turizm yerləşdirmə müəssisələrinin artmasına səbəb olub və 2006-cı ildən etibarən yerləşdirmə müəssisələrinin sayı durmadan artıb.

Son illər Azərbaycanda və dünyada fəaliyyət göstərən otel şəbəkələri silsiləvi formada Bakı və onun ətrafında 4-5 ulduzlu otellər açır. İnkişaf edən turizm biznes və turizm həcmi ilə yanaşı, yerləşdirmə müəssisələrinin sayında da mühüm dəyişiklik nəzərə çarpır (1. s, 32).

2015-ci ildə Azərbaycanda yerləşdirmə müəssisələrinin sayı 536 idisə, 2020-ci ildə bu rəqəm 655-ya yüksəlib. Müəssisələrin sayının artmasının ən mühüm səbəbi BTC boru kəməri ilə dünyaya açılan Azərbaycan nefti və təbii qazının ölkə iqtisadiyyatına müsbət təsir göstərməsi və iqtisadiyyatın artım sürətini tutmasına imkan verməsi idi. Yerləşdirmə müəssisələrinin əksəriyyəti özəl mülkiyyətdədir və 2015-ci ildən sonra xarici investisiyaların sayı azalıb. Belə ki, artım özəl mülkiyyətdə olmuş, dövlət nəzdində olan yerləşdirmə müəssisələrinin sayı sabit qalmış və bu say 33-ə bərabərdir. Xüsusi mülkiyyətdə olanların sayı isə 604-ə bərabərdir. (5).

Yerləşdirmə müəssisələrinin ümumi çarpayı tutumu 2015-cı ildə 37278 ədəd olsa da, 2020-ci ildə bu rəqəm 50687-ə yüksəlib. Yerləşdirmə müəssisələri təhsil, ziyarət və turizm biznesi formasında seqmentləşdirməyə və keyfiyyətli xidmət göstərməyə meyilliliyi artırmışdılar.

Azərbaycanda olan istirahət mərkəzlərinin təşkili məsələlərinə də baxmaq lazımdır.

Məşhur Şəki Spa **"Marxal"** müasir standartlara cavab verən istirahət kompleksdir. Qədim Şəki şəhəri yaxınlığında, Böyük Qafqazın cənub-qərb yamaclarında, dəniz səviyyəsindən 1080 metr yüksəklikdə tikilmişdir. 30 hektar ərazisi olan kompleks yeddi mərtəbəli otel

binası, SPA mərkəzi, 31 villa tipli kottec, restoranlar şəbəkəsi və bir neçə əyləncə mərkəzlərindən ibarətdir. (6) Kompleksin yerləşdirmə imkanı 600 nəfərə bərabərdir, bunlardan 390 nəfəri mehmanxana otaqlarında, 210 nəfəri isə kotteclərdə yerləşdirilir. Standard Room, Standard King Balcony, Standard Twin Balcony, Standard Triple, Deluxe Suite, Corner Suite, Couple Villa, Standard Villa, Medium Size Villa, Big Size Villa tipli otaqlar müştərilərə təklif olunur.

Kompleks daxilində tursitləri İpək Restoranı, Nuxa restoranı, Lobbi Bar, Göl Kafe tipli qida və içki ilə təmin edən müəssisələr fəaliyyət göstərir.

**Kungut Hotel-Restaurant** Şəkidən şimal-şərqdə, şəhər mərkəzindən 24 km aralıda, Bakıdan Şəkiyə gedən yolun düz üzərində tikilmişdir. Dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən hoteldə qonaqların istirahəti təmin etmək məqsədilə hər cür şərait yaradılmışdır. İstirahət insan sağlamlığının təməl şərtlərdən biri olduğu üçün Kungut Hotel & Resort qonaqların gündəlik təlaşdan uzaqda dincəlmələri üçün ideal şərait yaradır. Hotel əlverişli coğrafi mövqeyə malikdir. Hotel, belə ki, Qəbələ Beynəlxalq Hava Limanından cəmi 78 km məsafədədir (maksimum 1 saat). Həmçinin də hotelə hava limanından və əksinə transfer təklif edilir. (6)

Kungut Hotel & Resort-da mükəmməl istirahət üçün nəzərdə tutulan hər şey mövcuddur: müasir infrastruktur, gözəl dağ mənzərəli rahat otaqlar, müstəsna xidmət. Bu məkanı seçməklə yaddaşınızdan heç vaxt silinməyəcək bayramın dadını çıxaracaqsınız. Heç bir qonaq hotelin ətrafının mənzərəsinə biganə qala bilməz. Unikal mənzərə, zəngin mədəniyyət və müxtəlif tarixi yerlər hər ay böyük turist axınını özünə cəlb edir.

Türkiyə turizm sənayesi dünyanın inkişaf etmiş turizm sənayelərindən biridir. Belə ki, bu turizm sənayesi ölkəmiz üçün həddindən artıq əhəmiyyətlidir, çünki digər sənaye sahələrində olduğu kimi turizm sahəsində də Türkiyə təcrübəsindən yararlanmaq mümkündür. Bunun üçün Türkiyənin turizm destinasiyaları və orada yerləşən turizm mərkəzlərinə nəzər yetirmək lazımdır.

**Venezia Palace Otel.** Antalya Aksuda 35.000 kvadratmetr sahədə qurulan obyekt 1300 nəfərlik yataq tutumuna malikdir. 2003-cü ildə açılan Venezia Sarayının mövzusu kanallar və saraylar şəhəri olan Venesiyadır. Bundan əlavə kanalları və memarlığı ilə qonaqlara Venesiyada istirahət etmə təcrübəsi təklif edilir. Bundan başqa qonaqlara oteldə pulsuz aşpazlıq kursu verilir və bal ayına gələnlərə qondollarla hovuzda gəzmək imkanı təqdim olunur.(1)

**Titanic Beach Lara Hotel**. Titanic Beach Lara Hotel Titanic Hotel 2003-cü ildə Antalya Larada xidmət göstərməyə başladı. Hotelin mövzusu aysberqə çırpılan və sərnişinlərlə birlikdə su altında qalan Titanikdir. Körpüdə dayanmış gəmi görüntüsünü vermək üçün hotelin üç tərəfi altı min kvadratmetrlik hovuzla əhatə olunub. Hotelin açıq hava mövzusu interyerdə də öz əksini tapıb. Otaqlar və dəhlizlər gəmi kabinləri kimi dizayn edilib, ümumi yerlərdə dəniz materiallarından istifadə olunub. Hotelin tətbiq etdiyi mövzu, təklif olunan xidmətlərdən tutmuş personalın geyiminə qədər hər detalda öz əksini tapır. (1)

**Nəticə.** Hazırda Azərbaycanın mehmanxana sənayesində yeni, yüksək keyfiyyətli hotellərin sayı artır. Bu mehmanxanaların çoxu xarici şirkətlərlə birgə yaradılıb. Həmin müəssisələr müştərilərinə standart xidmət texnologiyası təklif edirlər. Onlar digər hotellərlə rəqabət aparmalıdırlar. Adi hotellərdən fərqli olaraq prestijli qonaqlar Avropa standartlarına cavab verən yeni hotellərə üstünlük verirlər. Müştərilərin cəlb edilməsi üçün Türkiyə təcrübəsindən istifadə etmək lazımdır, əvvəldə qeyd olunan xüsusi tematik hotellərin yaradılması buna misal ola bilər.

Yalnız öz qonaqlarına üstün xidmət təklif edən hotellər rəqabət apara biləcəklər. Hotel idarəçiliyində vahid model yoxdur, lakin bütün hotellərdə istifadə olunan ümumi nümunələr və elementlər vardır. Hotellər rəqabətədavamlı olmaq üçün sadə və uyğunlaşa bilən idarəetmə üsullarından istifadə etməlidirlər.

Hotel sənayesinin inkişafı həm də ölkənin işsizlik problemini həll etmək üçün çox vacibdir. Hotelin uğurlu fəaliyyəti üçün insan resursları vaciblik sıralamasında arasında ilk

yerlərdən birini tutur. Ancaq nəzərə almaq lazımdır ki, hotellərin ərsəyə gətirilməsi fəaliyyəti həddindən artıq resurs tələb edir və bu danılmaz formada baha başa gəlir. Nəticə etibarı ilə xüsusilə qeyd etmək lazımdır ki, həmin müəssisələrin idarə olunması bu sahədə təcrübəli olan mütəxəssislərə həvalə edilməlidir. Türkiyənin qonaqpərvərlik və məşğulluq, xüsusən də, turizm sahəsində təcrübəsini Azərbaycanda tətbiq etmək mümkündür. Azərbaycanda Türkiyədə olduğu kimi təbii resursların çoxunu əlçatan etmək üçün kifayət qədər komplekslər olmasa da, bu yerlər təkcə yüksək səviyyəli turistlər üçün deyil, həm də müxtəlif növ səyahətçilər üçün əlverişlidir. Bütün səfərlər, yeni istirahət kompleksi tikmək, istirahət mərkəzi, çimərliyi təmiz və sağlam saxlamaq üçün onu idarə etmək vacibdir. Bu bölgədə qardaş Türkiyə dövlətinin təcrübəsinə nəzər yetirsək, görmək mümkündür ki, dəniz turizmi və dənizlərin ətrafında istirahət komplekslərinin yaradılması çox diqqət yetirilməli bir sahədir. Məsələn, əraziyə gələnlər təkcə çimərlikdən istifadə etmirlər, həm də gecələr hoteldə və ya hosteldə yatırlar. Kurortdan və bir çox digər xidmətlərdən istifadə edirlər ki, bu da turistlərin istirahətin özlərinə olan faydasını qoruyarkən daha çox pul xərcləmələrinə səbəb olur.

## Ədəbiyyat

1. Ramazanlı Ağasəf Azərbaycanda turizm sənayesi məhsullarının yaradılmasının əsas problemləri, UNEC SABAH, Bakı, 2019
2. “Turizmde Temalı Otellerin Yeri ve Kullanıcı Beklentilerinin Analizi”, Ayşe Betül GÖK , Bora BİNGÖL, Mimarlık ve Yaşam Dergisi, 2021.
3. Azərbaycanda Turizm, Statistik Məcmuə, Bakı, 2021
4. AzerNews. 2020.
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az/source/information_society/. 2022.
6. https://fed.az/az/turizm/sekinin-en-maraqli-5-istirahet-merkezi-siyahi-56565
7. http://www.riverinn-resort.com/az/overview

**О.А.Гаразаде**

## Организация комплексов отдыха в Азербайджане и опыт Турции

***Резюме***

Азербайджанская Республика является одной из развивающихся стран в сфере туризма с ее природными ресурсами и древней историей. Древние торговые пути и транзитные проекты возвестили об Азербайджане миру. По этой причине организация и реализация туристических предприятий продолжаются для развития туризма. Использование опыта других стран и системный подход к этим практикам приводит к развитию таких предприятий. При рассмотрении сходства наших национальных традиций и культуры целесообразнее обратиться к опыту Турции, одной из развивающихся стран в сфере туризма.

**O.A.Garazada**

## Organization of recreation complexes in Azerbaijan and ihe experience of Turkey

***Summary***

The Republic of Azerbaijan is one of the developing countries in the tourism sector with its natural resources and ancient history. Ancient trade routes and transit projects announced Azerbaijan to the world. For this reason, the organization and implementation of tourism enterprises continue for the development of tourism. The use of the experience of other countries and a systematic approach to these practices leads to the development of such enterprises. Looking at the similarities of our national traditions and culture, it is more expedient to look at the experience of Turkey, one of the developing countries in the field of tourism.

*Rəyçi: i.e.n., prof. S.Əbdürəhmanov*

*Redaksiyaya daxil olub: 28.04.2022*